**AkademikTarih ve Düşünce Dergisi**
**Published by** **Autumn 2022 / 9-3**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.

# Güney Azərbaycanın Zəncan və Həmədan Əyalətlərində Xalçaçılıq

**Ramil Rüstemov***
**ORCİD: 0000-0002-4607-6516**

**Xülasə**

Zəncan və Həmədanostanları qədimdən insanların yaşaması üçün əlverişli təbii-coğrafi mövqeyə malik olmuşdur. Belə şərait isə insanlara özlərinə məxsus yaşayış yerlərini yaratmağa və məskunlaşmağa şərait yaratmışdır. Əraziyə daxil olan yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilən maddi mədəniyyət nümunələri burada yaşayan əhalinin məişəti və təsərrüfat həyatının yüksək səviyyədə olduğunu sübut edir. Bu bölgədə ən geniş yayılmış sənətkarlıq sahələrindən biri də xalçaçılıqdır. Xalçaçılıq bu əraziyə xas bir sahə olmaqla ən qədim zamanlardan günümüzədək əhalinin məişətində üstün mövqe tutmuşdur. Cənubi Azərbaycanın digər bölgələri kimi, Zəncan və Həmədanda toxunmuş xalçalar dünya muzeylərinin ən qiymətli nümunələri olmuşdur. Hal-hazırda da bu sahə inkişaf etdiriləraknəsldən-nəslə ötürülür. Məqalənin əsas məqsədi Zəncan və Həmədanda unudulmuş xalçaçılıq sənətininin inkişafını üzə çıxarmaq və İran xalçaçılıq sənəti ilə dünyaya tanıdılan bu sənətin azərbaycanlılara məxsus oluğunu göstərməkdir. Bu məqalədə müəllif araşdırma apararaq Cənubi Azərbaycanın ən qədim şəhərlərindən olan Zəncan və Həmədan şəhərlərinin nümunəsində qədim xalçaçılıq sənətinin inkişafı haqqında məlumat vermiş, xalçaçılığın qədim türk sənət sahəsi olduğunu araşdırmış və dünya ədəbiyyatlarında yalnış olaraq fars mədəniyyəti adlandırılan bu sahənin Azərbaycan türklərinə məxsusluğu sübut edilmişdir.

**Açar sözlər:** Xalça, Zəncan, Həmədan, Maddi Mədəniyyət, Arxeoloji Tədqiqatlar, Iqtisadi Həyat

**Gönderme Tarihi: 24/07/2020** **Kabul Tarihi:25/05/2022**

---

*Dr.,Azərbaycan Milli Elmlər Akademiyası Şərq İnstitutu, Bakı-Azərbaycan, ramilrustamov088@gmail.com

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
RÜSTEMOV, R., “ Güney Azərbaycanın Zəncan və Həmədan Əyalətlərində Xalçaçılıq”, *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s. 1027-1045.

# Carpet-weaving of Zanjan and Hamadan provinces of South Azerbaijan

**Ramil Rustemov***
**ORCİD: 0000-0002-4607-6516**

## Abstract

Zanjan and Hamadan provinces have a favorable natural-geographical locations for people to live since ancient times. Such conditions have allowed people to create their dwelling places and settle down. Material culture samples discovered during archaeological investigations in residential areas prove that the living conditions and the economic life of the people living here are high. Carpet weaving is one of this region's most popular areas of art. Connected to this region, carpet weaving has been the dominant position in the life of the people since ancient times. Like other parts of South Azerbaijan, carpets woven in Zanjan and Hamadan have been the most valuable examples of world museums. This field is currently being advanced and transmitted from generation to generation. The article's primary aim is to determine the development of forgotten carpet weaving in Zanjan and Hamadan and to show that this art, introduced to the world as Persian carpet weaving, belongs to Azerbaijanis.In this article, the author provided information about the development of ancient carpet weaving through the example of Zanjan and Hamadan, one of the most ancient cities of South Azerbaijan, the author explored carpet weaving as ancient Turkic art and proved that this area, falsely called Persian culture in world literature, belongs to the Turks of Azerbaijani.

**Keywords**: Carpet, Zanjan, Hamadan, Material Culture, Archaeological Investigations, Economic Life

**Received Date: 24/07/2020** **Accepted Date: 25/05/2022**

---

*****Dr.,Eastern Institute of Azerbaijan National Academy of Sciences, Baku-Azerbaijan, ramilrustamov088@gmail.com*

***You can refer to this article as follows:***
RÜSTEMOV, R., " Güney Azərbaycanın Zəncan və Həmədan Əyalətlərində Xalçaçılıq", *Akademik Tarih ve Düşünce Dergisi, Academic Journal of History and Idea,* C. 9, S. 3., 2022, s. 1027-1045.

# Ковроткачество в Занджанском и Хамаданском провинциях Южного Азербайджана

**Рамиль Рустемов***
**ORCİD: 0000-0002-4607-6516**

**Резюме**

Благоприятное природно-географическое положение Зенджанской и Хамаданской провинции еще с древних времен создавало условия для расселения здесь людей. Это условиепозволилолюдямсоздавать для себя поселенийипоселитьсяздесь. Образцы материальной культуры, обнаруженные во время археологических исследований жилых районов, входящих в состав провинций, доказывают, что бытовые условия жизни и хозяйственная жизнь людей, живущих здесь, были на высоком уровне.Ковроделие является одним из самых популярных направлений искусства в этом регионе. Связавшись с этим регионом, ковроделие было доминирующим положением в жизни людей с древних времен. Как и другие части Южного Азербайджана, ковры, сотканные в Зенджане и Хамадане, являются наиболее ценными образцами мировых музеев. В настоящее время эта область разрабатывается и передается из поколения в поколение.Основная цель статьи выявить развитие забытого ковроткачества в Зенджане и Хамадане, и показать, что это искусство, которое было представленомиру иранским ковроткачеством, принадлежит азербайджанцам.В этой статье автор предоставил информацию о развитии древнего ковроткачества на примере Занджана и Хамадана, одного из древнейших городов Южного Азербайджана, изучал ковроткачество как область древнетюркского искусства и доказал что, эта область, ошибочно представленнаяв мировой литературеперсидской культурой, принадлежит азербайджанским тюркам.

**Ключевые слова:** Ковер, Зенджан, Хамадан, материальная культура, археологические исследование, экономическая жизнь

**Получено: 24/07/2020** **Принято: 25/05/2022**

---

*доктор, Восточный институт Национальной академии наук Азербайджана, Баку-Азербайджан, ramilrustamov088@gmail.com*

***Ссылканастатью:***
RÜSTEMOV, R., " Güney Azərbaycanın Zəncan və Həmədan Əyalətlərində Xalçaçılıq", *академическая история и мысль*, T. 9, NO. 3, 2022, c. 1027-1045.

## Giriş

Dünya mədəniyyəti içərisində yeri olan Azərbaycan xalçası özünün xüsusi ornamentləri ilə fərqlənən sənət nümunəsidir. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən, Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən məşğul olmuşlar. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış gildən düzəldilmiş at fiqurunun üzərində gül-çiçək təsvirləri ilə bəzədilmiş çul rəsmi, Urmiya yaxınlığındakı Həsənli təpəsindən aşkar edilmiş qızıl camın üzərində üstünə çul salınmış şir təsviri və s. təsvirlər Azərbaycanda xalça sənətinin nə qədər qədim tarixə malik olduğunu göstərir.

Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, KlavdiElian, Ksenefont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Sənətşünaslar qeyd edirlər ki, Təbriz xalçaçılıq məktəbi Azərbaycanın ən qədim və məşhur xalçaçılıq məktəbi olaraq, Təbriz, Ərdəbil, Marağa, Mərənd, Maku, Xoy, Urmiya, Zəncan, Həmədan, Qürvə, Bicar, Qaşqay, Heris, Sennə, Əhər, Salmas, Qaradağ və başqa Cənubi Azərbaycan xalça məntəqələrini əhatə edir. Onu da bildirirlər ki, bu ərazidə yaşayan türksoylu tayfalar hələ qədimdən xalçaçılığın yaranması və inkişafında mühüm rol oynamış, müxtəlif dövrlərdə İran xalça sənətinin təşəkkülünə ciddi təsir göstərmişdir. Bir məqamı xüsusi qeyd edək ki, xalçaçılıq sənəti türk xalqlarında sanki genetik bir məsələdir.

Elə bir türk xalqı yoxdur ki, öz məişətində, yaşadığı diyarın iqliminə uyğun toxuculuq nümunələri toxumasın, xalça ərsəyə gətirməsin.[1] Azərbaycanda toxuculuq sənəti Neolit dövründə yaranmışdır. Qoyunçuluğun inkişafı və nəticədə yun istehsalı toxuculuğun inkişafının əsas səbəblərindən biri idi. Köçəri heyvandarlığın meydana gəlməsi ilə bu inkişaf sürətlənir. Əldə edilən yun sümükdən hazırlanmış daraqladaranır və sonra əldə edilən iplik bir mil ilə əyrilir. Xalçaçılığa aid bu cür əmək alətlərinə Mingəçevir, Kültəpə, Üzərliktəpə və s. bölgələrdəki arxeoloji qazıntılardan əldə edilmişdir.

[1] İradə Sarıyeva, "Təbriz xalçaçılıq məktəbi - mədəniyyətimizin böyük qollarından biri kimi", *Bakı xəbər qəzet,* 67, 2015, s. 15.

Naxçıvan bölgəsindəki Kültəpə arxeoloji abidəsində aparılmış qazıntılar zamanı Azərbaycanda neolit dövründə (e.ə. V-IV minilliklər) gil və sümükdən düzəldilmiş iplik çarxı (iplik düzəldən alətlər) aşkar edilmiş, bu da o dövrdə Azərbaycanda sənətkarlıq və toxuculuq sənətinin mövcudluğunu göstərirdi. Azərbaycanın digər bölgəsi Cəlilabadda arxeoloqlar e.ə. IV minilliyə aid olan minlərlə Neolit dövrünə aid dulusçuluq nümunələrinin üzərində xalça motivlərinə rast gəlinmişdir. Azərbaycanda xalçaçılığın inkişafına aid tapıntılardan biri də Güney Azərbaycanın Maku bölgəsindəki qazıntılardan əldə edilmişuzunluğu 30 sm, hündürlüyü 22 sm və eni 11,5 sm olan gildənhazırlanmış at fiqurudur. Atın belində üzəri çiçək təsvirləri ilə bəzədilmiş bir çul da vardır. Bu tapıntının e.ə.IIminilliyə aid edildiyi aşkar edilmişdir. Güney Azərbaycanın Urmiya gölü ətrafında, e.ə.V-IV minilliyə aid Göytəpə qazıntılarında keramik qabların üzərində xalça motivlərinə bənzəyən həndəsi fiqurlar, dalğalı xətlər, toxuculuq işlərini təqlid edən xətlərlə örtülmüş üçbucaqlar və s. fiqurlar aşkar edilmişdi. 1958-ci ildə Həsənlu təpəsindən (Cənubi Azərbaycan) arxeoloji qazıntılar zamanı e.ə. VIII əsrə aid qızıl qab tapıldı.

Bu qızıl camın üzərində o dövrün xalçaçılıq sənəti üçün xarakterik olan üzərində çuvaldan hazırlanmış palan olan bir aslanın portreti də var idi. Bu tapıntılar göstərir ki, zəngin naxışlı xalçalar o dövrdə Azərbaycanda toxunmuşdu və bu, digər maddi mədəniyyət nümunələrində də öz əksini tapmışdır.

Eyni ərazidə tapılan digər toxuma qalıqları (qaba parça, çətənə və s.) da bunu sübut edir.Azərbaycanda toxuculuq inkişaf səviyyəsinin başqa bir göstəricisie.ə.II minilliyin sonu I minilliyin əvvəllərinə aid toxuculuq alətləri Mingəçevir bölgəsindəki kurqanlardan birində ortaya çıxdı. Azərbaycanda xalça ipliklərinin rənglənməsində tətbiq olunan boyalardan istifadə qədim dövrlərə təsadüf edir. Butapıntılardan biri 1960-cı ildə ingilis tədqiqtçısı Çarlz Born tərəfindən aparılmış Təbrizin cənubundakı Təzəkənd ətrafındakı Üskü qazıntılarında tapıldı. Burada 4500 il əvvələ aid toxuculuq və boyama işlərini əks etdirən nümunələr əldə edildi.[2]

### 1. Güney Azərbaycanda xalçaçılıq sənəti

Bəllidir ki, orta əsrlərdə Şərqdə mühüm ticarət mərkəzləri formalaşmış və burada zəngin şəhərlərin Avropa ilə ticarət əlaqələri xalçaçılıq sənətinin sürətli inkişafına təkan vermişdir. Belə ticarət mərkəzlərindən biri də Cənubi Azərbaycan olmuşdur. Bu məqalənin

[2] Valide Paşayeva, "Azerbaycan halı seneti tarihine bir bakış", *Atatürk Üniversitesi Güzel Sanatlar Enstitüsü Dergisi,* 11, 2003, s. 77.

işlənməsində əsas məqsədlərdən biri türk xalqlarının qədim maddi mədəniyyət nümunələrindən olan xalçaçılığın Cənubi Azərbaycanda inkişaf xüsusiyyətləri olmuş, eyni zamanda bəzi qeyri türk xalqların bu sənət sahəsini əsassız olaraq mənimsənilməsinin qarşısının alınması olmuşdur. Ən çox fars mədəniyyətinin təmsilçiləri və tədqiqatçıları xalçaçılığı özünün küləşdirməyə çalışmış, bu hal günümüzə dək də davam etmədədir.

Cənubi Azərbaycanın maddi mədəniyyətində xalçaçılıq önəmli yerlərdən birini tutur və bu sənət sahəsi dünyada da məşhurdur. Cənubi Azərbaycan türklərinin xalçaları İran mədəniyyətinin və sənətinin inkişaf etmiş, məşhur sahələrindən biridir. Bu gün bir çox ölkələrdə istehsal olunan xalçalarda tapılan bir çox motiv, naxış və ənənəvi rənglər Həmədan və Zəncan xalçalarında istifadə edilən motiflər və naxışlardan götürülmüşdür. Ümumiyyətlə, Həmədan və Zəncan xalı dizaynları təbiət, tarix, din və miflərdən ilhamlanmışdır. Quşlar, ağaclar, təbii dekorasiyalar, tarixi və mifoloji simvollar, dini simvollar və hekayələrdən istifadə edə bilərlər. Xalçalar yalnız ixrac və ya sənət əsərləri deyil, maddi mədəniyyətin bir hissəsini təşkil edir. Xalçalar evlər, ofislər, saraylar və ibadətgahlar üçün örtük rolunu da oynayırdı. Cənubi Azərbaycan xalçaları dizayn, rəng, ölçü və toxuculuq müxtəlifliyi ilə məşhurdur. Üstəlik, istehsal edilən hər bir xalı unikallığı ilə tanınırdılar. Bu unikallıq bir xalının zəngin mədəniyyəti və əzəmətli tarixini müəyyənləşdirmişdir. Cənubi Azərbaycanda tarix boyunca xalçaçılıq sənəti daim inkişafda olmuş, bu da istehsal edilən xalçaların keyfiyyətini texnoloji və dizayn baxımından zənginləşdirirdi. Əllə toxunmuş xalçalar çubuq (iplik, yun və ya pambıqdan hazırlana bilən düyünlər), şəffaflıq (eyni çalışan iplik) və xovluya malikdir. Ənənəvi dəzgahlar ümumiyyətlə ağacdan, lakin daha yeni olanlar bəzən poladdan hazırlanırdı.[3] Toxunma metodu dizayn baxımından fərqli olmasına baxmayaraq, ümumiyyətlə, toxuculuq, çarxın uzunluqlu zolaqları altındakı və üstəgəl şaquli iplərin keçişini ehtiva edir. Bir neçə düyün hazırladıqdan sonra, toxucu toxunuşu ağır bir daraqla çəkir. Çətənə və atqı ipləri ümumiyyətlə pambıq, bəzən yün və nadir hallarda ipəkdən hazırlanır. Çarşafın içərisində bükülmüş balaca bir düyünlər olur. İki düyün növü geniş yayılmışdır: Fars (Senna) və türk (Gordi). Bu düyünlərlə əlaqəli adların coğrafi və ya etnik mənsubiyyətilə heç bir əlaqəsi yoxdur. İranda xalça toxuculuğunda hər iki növ düyündən istifadə edilir. Fars düyünü, qaynaq ipi, bir düymə ipi üzərində bir növbəni təşkil edir, Türk düyünündə isə iki bitişik dartma zolağı ətrafında aparılır. Türk düyünləri simmetrikdir və geometrik dizaynlar üçün daha yaxşı işləyir və qəbilə kilimlərində çox məşhurdur, fars düyünü isə asimmetrikdir

[3] Carol Bier, *Woven from the Soul, Spun from the Heart:Textile Arts of Safari and Qatar Iran, Sixteenth–Nineteenth Centurie,* DC: The Textile Museum, Washington 1987, s. 37.

və xalılarda olan mürəkkəb dizaynlara uyğun gəlir. Əvvəlki dövrlərdə rənglər çiçək və tərəvəz boyalarından hazırlanmış, beləliklə hər bölgədə mövcud olan bitkilərlə əlaqəli xalçalara unikal rənglər verilmişdir.[4] A.Sesil Edvardsa görə, xalça haşiyənin ölçüsündən asılı olmayaraq müxtəlif parametrlərdə istifadə edilə bilən bir nümunədir və otaq uzunluğuna bərabər olan kəsilmiş bir hissədən ibarətdir. Xalçalar, ümumiyyətlə, toxunma xüsusiyyətlərinə görə müəyyən tayfa, kənd, və millətə mənsubluğu ilə seçilirlər.



*Şəkil 1. Müxtəlif fitorəsmləri əks etdirən Həmədan xalçası*

Məsələn,Bəluçi adı ilə tanınan xalçalar Şərqi İranın Bəluçi tayfalarının (ya da Qərbi Əfqanıstanın) istehsal etdiklərini bildirir. Bu kimi nümunələr eyni zamanda, yerli mədəniyyətəbağlı müəyyən bir coğrafi əraziyə və ya köçəri qəbiləyə aid toxuculuq texnikası vasitəsilə həyata keçirilir. Təbiətdən götürülmüş bir çox məşhur türk dizaynlarının nümunələri arasında vaza, ağac, şah Abbası, golfarang, balıq, (châhərfasl) dörd mövsüm, afşan (səpələnmiş) və şekargah (ov səhəsi), Zərdüşt ənənəsinə gedib çıxan "ana və uşaq", “dostluq və düşmənçilik" nümunələrindən ibarətdir. Portret dizaynları isə şahları və hörmətli şəxs simvollarını təsvir etmək üçün istifadə edilmişdir. Həndəsi dizaynlar qabqabi (çərçivəli), moharamat (zolaqlı) və Torkman nümunələrini əhatə edir.İpək və yun xalçalarında istifadə olunan üçbucaqlı sitron dizaynı ümumiyyətlə yuvarlaq və bəzən eliptikdir, xalçanın əsas gövdəsinin hər bir hissəsindəgörünən bir sitronun dörddə biri formasında olur.[5] Dizaynlar xalça toxuculuq mərkəzləri olan Kirman, Kaşan,



*Şəkil 2. Zəncan xovlu xalçası*

[4] Sheila Canby *The Golden Age of Persian Art, 1501–1722,* Harry N. Abrams, New York 2000, s.18.
[5] Arthur CecilEdwards, *The Persian Carpet; A Survey of the Carpet-Weaving Industry of Persia,* 1953, s. 250.

Xorasan, İsfahan, Tehran, Təbriz, Həmədan, Zəncan və s. şəhərlərin və ya bölgələrin də adı ilə adlanır. Tipik Həmədan xalçası kiçikdir və güclü parlaq rənglərə malikdir. Ən qədim İran xalçaları (Cənubi Azərbaycan) məhkəmələri, döyüşləri və iqtisadi mübadilələri izah edən tarixi əsərlərdəndir. Məsələn, qədim yunan tarixçisi Ksenofon Midiya xalçaları haqqında məlumat vermişdir. Makedoniyalı İskəndrın yürüşləri haqqında hesabatlar göstərir ki, Kirin məzarında xalça tapmışdır. Bəziləri inanırlar ki, Avestada Zərdüşt yazısı bir qədim İran xalçalarının qızıl iplərlə toxunduğunu göstərir.

Səlcuq dövründə xalçaçılıq sənəti genişləndi və daha da artdı. Hal-hazırda Türkiyənin Konya şəhərindəki Əlaəddin məscidində və Mövləvi muzeyində saxlanılan bir sıra xalçalar bu dövrdə istehsal olunan xalçalara bənzəyir. Moğolların İranı ələ keçirməsindən sonra xalça istehsalı artmış və yeni hökmdarlar öz saraylarını Cənubi Azərbaycan xalçaları ilə bəzəməyə başladılar.Təbrizdəki Qazan xan sarayını buna misal göstərmək olar.[6] Hesabatlar göstərir ki, bu dövrün xalçaları həndəsi dizaynlarda sadə motivlərə malikdir, baxmayaraq ki, xalça və arxitektura dizaynları arasında böyük bir mübadilə olmuşdur. Səfəvilər dövründə xalça sənayesi sənətkarlığın və ticarətin inkişafına gətirib çıxarmışdır. Səfəvi bağçaları, memarlıq nümunələri və tarixi abidələr bu dövrdə xalçaların dizaynı üçün ilham mənbəyinə çevrilmişdir. Həm ŞahTəhmasib, həm də Şah Abbas xalça sənayesinin inkişafına önəm vermiş, xarici ölkə liderlərinə və hörmətli şəxslərə hədiyyə olaraq istifadə etmişlər. Azərbaycan xalçaçılıq sənəti tarixində XVI-XVII əsrlər ən zəngin dövrlərdəndir. Bu yüzillərdə Azərbaycanda olmuş əcnəbi səyyahlar ölkənin bir çox şəhərlərində daxili və xarici bazarlar üçün xalça toxunan xüsusi karxanaların fəaliyyət göstərdiyini qeyd etmiş, həmçinin, müxtəlif xalçaçılıq məktəblərinin yarandığını və inkişaf etdiyini də görmək olar. Bu dövrdə xalçaçılığın inkişafı bir dövlət proqramı olmuş və dövlət bu işə xüsusi diqqət yerirmişdir.[7]

## 2. Güney Azərbaycanın Zəncan və Həmədan əyalətlərində xalça növləri

Azərbaycan qadını üçün xalça-palaz toxumaq ən adi məşğuliyyət növü, keçmiş ailə məişətinin zəruri tələblərindən biri idi. Əriş düzümləri arasından çal-çarpaz keçirilən arğac ötürmələri və əriş taylarına müəyyən qaydada dolanıb bəndlənən bəzək ipi (ilmə) vasitəsi ilə toxunan xalça-palaz məmulatı istehsal texnikasına görə xovlu (ilməli) və xovsuz (ilməsiz) olmaqla iki qrupa ayrılır. Forma, ölçü, bəzək-naxış xüsusiyyəti və istifadə məramından asılı olaraq, bunların hər birinin müxtəlif növ və çeşniləri yaranmışdı. Xovlu xalçalar bəzək-nəqş

[6] Michael Hillmann, *Persian Carpets,* University of Texas Press, Austin 1984, s. 44.
[7] Filiz Nurhan Ölmez, "Safavi Dönemi Dokumacılık Sanatı ve Özellikleri", *Akademik Araştırmalar Dergisi,* 2006, Yıl 7, S. 28, s. 181.

xüsusiyyətinə, başqa sözlə, bədii kompozisiya tərtibatına görə, ornamental və süjetli xalça qrupuna ayrılırlar. Xovlu xalça məmulatı ölçü, forma və təyinatına görə xalı, gəbə, xalça, canamaz olmaqla müxtəlif növlərə aynlır. Bununla yanaşı, keçmişdə Azərbaycanın bəzi bölgələrində "dəst xalça" (fərş) toxumaq dəb halını almışdı. Vaxtilə Qarabağın dəst xalçalarına bir ədəd orta xalı (uzunu 5-7, eni 2 arşın), "kənarə" adlanan bir cüt yan xalça (uzunu xalının boyuna müvafiq, eni 1 arşın), bir ədəd "sərəndaz" adlanan kəlləlik xalça daxil idi. Bunlardan əlavə varlı evləri üçün bəzən "dəst xalı" və ya "payəndaz" adlanan ayaqlıq da əlavə olunurdu. Xovlu xalça məmulatı arasında böyük ölçüyə, çeşni zənginliyinə, naxış-bəzək gözəlliyinə, rəng əlvanlığına görə xalı xüsusi yer tuturdu.[8]

Xalı - ənənəvi xalça məmulatının ölçü etibarı ilə ən böyük növü olub, çox vaxt dəst halında toxunardı. Əsasən, evin döşəməsinə salındığından xalının boyu otağın ölçüsünə müvafiq olaraq, 4,5 arşından 6, bəzən isə 7 arşına çatırdı. Xalı adətən, dəst halında işləndiyindən o, "miyanə", yaxud "ortalıq" adlanmaqla, 2 arşın enində toxunurdu. Xalının nisbətən enli toxunan və sərbəst halda işlənən uzun növü "zili" adlanırdı.Xalının bir qədər kiçik ölçüdə toxunmuş kiçik ölçülü növü "xalıbalası" adlanırdı. Onun uzunu 4 arşın, eni 1,5-2 arşın olurdu. Boyca xalıdan kiçik, lakin onun yan taylarından xeyli enli olan gəbə Azərbaycanın əksər etnoqrafik bölgələrində "xalça" adı ilə kütləvi istehsal olunmuşdur. Gəbənin "taxtaüstü" orta ölçülü növü 3 arşın uzununda, 1,5 arşın enində toxun-maqla, keçmiş ev məişətində mühüm yer tutan ağac taxt (çarpayı) və ya onun arxa divarı üçün nəzərdə tutulurdu.[9]

Canamaz xüsusi olaraq namaz qılanlar üçün nəzərdə tutulduğundan xeyli kiçik ölçüdə toxunurdu. Onun uzunu, adətən, 1 arşın, eni 3 çərək ölçüdə olurdu. Çox nadir halda Cümə məscidləri üçün "səf səccadə" adlanan çox böyük ölçüdə namazlıq xalça toxunurdu. Fərdi səciyyə daşıyan "canamaz"ınfərqləndiriciəlamətlərindən biri də bundan ibarət idi. Azərbaycanın başlıca xalça istehsalı mərkəzlərinin hamısında onun



*Şəkil 3. Gül-çiçək ornamentli xovsuz xalça (Həmədan)*

[8] S. Blair- J.M. Bloom, *The Art and Architecture of Islam, 1250–1800* (The Yale University Press Pelican History of Art Series), 1996. s. 276.
[9] *Azərbaycan etnoqrafiyası*, 3-cilddə, .C I, Şərq-Qərb, Bakı 2007, s. 447.

dekorativ bəzək tərtibatında mehrab kompozisiyası başlıca yer tutmuşdur. Məhz bu səbəbdən də canamaz çox vaxt həm də "mehrabi" adı ilə tanınırdı.[10]

Qacarı (yəhərüstü) - at yəhəri üçün toxunmuş xırda ölçülü, oval formalı, kənarları hərləmə saçaqlı xalça növü olub at belində gəzən varlı şəxslərin yəhərinin üstünə salmaq üçün sifarişlə toxunurdu. Çul - şan-şöhrətli şəxslərin minik atı üçün toxunmuş, qabaq hissəsi qoşa qanadla tamamlanan xalça növü olmuşdur. Soyuq vaxtlarda o, minik atının üstünə salınırdı. Keçmişdə at çulu ilə yanaşı, dəvə çulu da toxunurdu. Bəzək tərtibatına görə Azərbaycanın ənənəvi ornamental xalçalarının tarixən saysız-hesabsız çeşniləri yaranmış və onların böyük bir qismi zəmanəmizədək gəlib çatmışdır. Xalça çeşnilərinə və onların icra texnikasına görə Azərbaycanın xalçaçılıq sənətində üslub xüsusiyyətləri ilə seçilən müxtəlif məhəlli istehsal mərkəzləri yaranmışdır. Xovsuz xalça məmulatı, həmçinin, istehsal texnikasına və istifadə məqsədinə görə palaz, kilim, vərni, sumaq, şəddə, ladı, "qacarı" adlanan yəhərüstü çul, məfrəş, çuval, xurcun, heybə, duz torbası və s. olmaqla müxtəlif növlərə ayrılır. İstehsal həcminə və əməli məişət əhəmiyyətinə görə bunların arasında palaz məmulatı xüsusi yer tuturdu.[11]

Palaz tipli toxuma növləri az məsrəflə tez başa gəldiyindən iqtisadi cəhətdən daha sərfəli idi. Palaz məmulatı nisbətən seyrək əriş düzümü, ilməsiz və boş toxunması ilə səciyyələnir. Toxuma texnikasına və bəzək tərtibatına görə palaz məmulatı saya və güllü olmaqla iki qrupa ayrılır. Bəsit keçirtmə (çalkeçir) üsulu ilə toxunan saya palazın arğac ipi əriş taylarını təkbir qaydada çalkeçiretdiyindən onun həm astar, həm də avand üzü eyni görkəm alırdı. İkiqat toxuma texnikası ilə hazırlanmış palaz növü el arasında çox vaxt "yer palazı" adlanırdı. Yer palazı zolaqlı və zolaqsız (saya) olmaqla iki cür toxunurdu. Saya palazın həm ərişinə, həm də arğacına eyni rəngli, yaxud oxşar rəng çalarına malik ip işlənirdi. Zolaqlı palazın əriş düzümü hər dəfə müəyyən saydan sonra fasiləsiz surətdə təkrarlanan müxtəlif rəngli iplərdən tərtib edilirdi.Toxuma texnikası cəhətdən şəddə zolaqlı palaz ilə tipoloji oxşarlıq təşkil edirdi. şəddə bəzən şahmatsayağı bəzəkli toxunurdu. Bu halda onun ərişi və arğacı rəngbərəng iplərdən ibarət olurdu. Eyni rəngli əriş və arğac iplərinin miqdarını artırıb azaltmaqla şəddə xanalarının ölçüləri dəyişdirilirdi. Güllü palaz istehsal texnikasına görə saya palazdan fərqlənməklə tay üzlü toxunurdu. Güllü palazın tipik növü kilim olmuşdur. Azərbaycanın xalçaçılıq mərkəzlərində kilimin toxuma texnikası cəhətdən bir-

---

[10] A.K. Alekperov, *İssledovaniyapo arxeoloqii i etnoqrafiiAzerbaydjana,* İzdatelstvo Akademii Nauk Azerbaydjanskoy SSR, Baku1 960, s. 205.

[11] K. Xatisov, *Kustarnıe promısli Zakavkazskoqo kraya, Otçetı i issledobaniya po kustarnoy promışlennosti v Rosii,* t.N, SPb., 1894, s. 284.

birinə yaxın olan müxtəlif növləri: zili, vərni, sumaq, ləmpə, gülvəngəli və s. yaranmışdır. Kilim tipli məmulat növləri mürəkkəb keçirtmə, dolama, (ilgəkli dolama), dərmə, qıyıq, ladı və s. olmaqla müxtəlif texniki üsullarla toxunurdu.[12]

Mürəkkəb keçirtmə texnikası ilə hazırlanan güllü palazın əriş taylarını aralamaq üçün ümumi dal ağacı əvəzinə qısa çilik işlənirdi. Cərgə ilə çin-çin toxunan ilmə və ya boya-boy keçirilən arğac iplərindən fərqli olaraq, güllü palazın bəzək ipləri naxış ünsürünü müstəqil toxuyan hər bir qadının qarşısındakı, əriş taylarının arasından çilik vasitəsilə keçirilib toxunurdu. "Dolama", yaxud dərmə texnikası ilə birüzlü toxunan kilimlərdə naxış ünsürü ilmə sayağı rəngbərəng boyanmış xüsusi bəzək ipinin köməyi ilə əmələ gətirilirdi. Naxışın müvafiq hissələrinin rəng uyarının tələbindən asılı olaraq bəzək iplərinin sərbəst ucu, bir qayda olaraq, məmulatın, astarüzünə çıxarılırdı.[13]



*Şəkil 4. Zəncan xalçaçılıq məktəbinə aid əl xalçası*

Xalça-palaz məmulatının bütün növləri, əsasən, eyni dəzgahda - dik hana vasitəsi ilə toxunurdu. Hana hissələri ağacdan olub bir cüt qoldan, onları köndələn vəziyyətdə birləşdirən alt və üst oxdan, daban paralarından ibarət bəsit quruluşa malik idi. Hananın köməkçi hissələrinə gücü ağacı, gücü çubuğu, vərəngalan, dal ağacı, ağız çubuğu, oxlov, yumaq ağacı daxil idi. Toxuma prosesində həvə, kirkit, bıçaq və qayçıdan istifadə olunurdu. Xalça çeşnilərinin böyük əksəriyyəti ornamental bəzək xüsusiyyətlərinə görə, haşiyə (yelən)

[12] *Azərbaycan etnoqrafiyası,* 3-cilddə, C.I, *a.g.e,* s. 447.
[13] Nicolas Purdon, *Carpet and Textile Patterns,* London Laurence King Publishing, London 1996. s. 54.

və mərkəz (aralıq göl) olmaqla, iki hissəyə ayrılır. Çeşni növündən asılı olaraq xalçaların yelən və göl naxışları həm forma, həm də ilmələrin rəng uyarı etibarilə bir-birindən fərqlənirdi. Hətta eyni çeşnidə toxunmuş xalçanın rəng uyarında toxucunun zövqündən, xoşlayıb seçdiyi boya çalarından asılı olaraq, bəzək-nəqş ünsürlərinin icrasında bənzərsizlik nəzərə çarpırdı. Buradan da eyni çeşninin çox vaxt bu və ya digər istehsal mərkəzinin adı ilə məşhur olan saysız-hesabsız çeşidləri yaranmışdır. Xüsusilə, toxucu öz peşəsinə yaradıcılıqla yanaşdıqda, çeşni növündən asılı olmayaraq, hər bir xalça bənzərsiz dekorativ sənət əsərinə çevrilirdi. Azərbaycanda tarixən süjetli xalçalara nisbətən ornamental kompozisiyalı xalçalar üstünlük təşkil etmişdir. Ornamental xalçaların bəzək-naxış tərtibatına görə bir-birindən seçilib fərqlənən çoxsaylı çeşniləri yaranmışdır. Xalça toxucularının müxtəlif nəsilləri tərəfindən dönə-dönə toxunub təkrarlanan, hər dəfə də yeni çalarlar əlavə edilən həmin çeşnilərin xeyli hissəsi zamanın sınaqlarından keçib dövrümüzə qədər gəlib çatmışdır. Bəzək-naxış kompozisiyasına görə, Azərbaycan ornamental xalçaları xonçasız və xonçalı olmaqla iki tipoloji qrupa bölünür. Daha qədim tarixə malik olan xonçasız xalçaların bir sıra çeşniləri zəmanəmizədək gəlib çatmışdır.[14]

Zəncanostanı xalça istehsalında təcrübəsi olan və illik 350 min $m^2$ xalça toxuyan ostanlardan biridir. İran xalça mərkəzinin proqramları əsasında əyalətdə xalça gildiyaları yaradılmış və aşağıdakı planları həyata keçirməyi qarşılarına məqsəd qoymuşlar: Xalçaçılığın inkişafı ilə bağlı seminarların təşkil edilməsi, toxucuların sığortası, təlim kursları, ixracatçılar üçün ixrac mükafatlarının ödənişi və müəyyən maneələr və onların həll edilməsi, xalçaların coğrafi ərazilərdə qeydiyyatı, xalça sərgilərinin təşkil edilməsi və s. göstərmək olar. Dünyada toxuculuq beşiyi kimi Misir və Assuriya qədim sivilizasiyaları idi. Arxeoloji qazıntılar nəticəsində ilk xalça nümunəsi 2500 il bundan əvvəl Monqolustan sərhəddinin səksən kilometrliyində Altay dağları arasında məşhur Pazırık kurqanından tapılmışdır. Avropa və rus müəlliflərinin tədqiqatlarından toxunmuş xalçaların mənbəyinin Azərbaycana aid olduğu meydana çıxmışdır. Rus tədqiqatçısı Rudenko Pazırıkdan yüz səksən kilometr məsafədə Basada deyilən yerdə arxeoloji qazıntılar zamanı Əhəmənilər dövrünə aid toxuculuq nümunələri də aşkar etdi. Bu nümunələr Əhəmənilər dövründə tapılmasına rəğmən bu imperiyada yaşayan türk xalqlarına aid olduğu təsbit edilmişdir.[15]

---

[14]*Azərbaycan etnoqrafiyası,* 3 cilddə, C.I, *a.g.e.* s. 475.
[15]Mohammad Java Nasiriya, *A travelling in Iran carpet weaving art,* author, Tehran 1995, s. 20.

Zəncan xalçaçılıq sahəsində inkişaf etmiş əyalətlərdən olsa da, təəssüf ki, bu barədə kifayət qədər yazılı əsərlər və onun haqqında ətraflı məlumat yoxdur. Bu barədə yazılı sənədlər bəzi



*Şəkil 5. Həmədan xovlu xalçası*

tarixçilər və turistlərin bölgəyə səfərləri zamanı ərazinin sənaye və xalçaçılığı haqqında bəzi yazılı məlumatlardır. Fətəli şah dövründə İrana  səyahət edən bir səyyah əfşarlardan 5 xalça aldığını gündəliyində qeyd etmişdir. Onun məlumatlarına görə Zəncanda köçəri həyat sürən əfşarlar toxuduqları xalçaları bazarda satır, əvəzində yun, mahud, ipək, barıt, silah və s. alırdılar. Digər bir məlumatında isə əfşarların Zəncanda yaşayan mühüm türk tayfasından olduğu, xalçaçılıq festivallarıda iştirak etdikləri qeyd edilmişdir. Əfşar xalça materiallarının keyfiyyəti, toxunma xüsusiyyəti və rəng sabitliyinə görə ən yaxşılarından hesab olunur və bu tayfaya məxsusluğu ilə tanınır.  Xalçaçılıq sahəsi üzrə 10 ildən artıq tədqiqat aparan doktor Əli  Hasuri Zəncanda  xalçaçılığın tarixini tunc dövrünə, 3500 il bundan əvvələ gedib çıxdığını qeyd etmiş və əsasən Zəncanın qərbində Xorde oymaq və Anquran kəndlərində meydana gəldiyini qeyd etmişdir. Yuxarıdakı məlumatlardan aydın oldu ki, xalçaçılıq əkinçilik və maldarlıqla yanaşı Zəncanostanının ən qədim sahələrindən olmuş, hal-hazırda da bu sahə inkişaf etməkdədir. Ən çox toxucular kənd qadınlarından ibarət olmuşdur.  Lakin bu gün xalçaçılıq Zəncan şəhərlərində, eləcə də kəndlərdə yayılmışdır və kişilər də bu sahə ilə yaxından məşğul olurlar. Yerli stil istisna olmaqla, Azərbaycan, Bicar və Qum kimi qonşu

şəhərlərin üslublarından da istifadə olunmuşdur. Əfşar xalçaları öz keyfiyyətinə görə beynəlxalq bazarlarda dəmir xalça kimi tanınır.[16]

### 3. Azərbaycan xalçaları dünya arenasında

Hal-hazırda Londonda olan Viktoriya və Albert muzeyində olan ən məşhur xalça, 1539-cu ildə usta-toxucu Təqva Maqsud Kəşani tərəfindən hazırlanan Ərdəbil xalçasıdır. Kempfer, D. Garsia de Silvia Figueroa, Pedro Teixeira, Con Baptiste Tavernier, Jan Şardin, Adam Olearius kimi müəlliflər Azərbaycan xalçalarının gözəlliyi haqqında dəyərli məlumatlar verirdilər. Bu xalıların keyfiyyəti, hətta öz tacirlərini və sənətkarlarını bu xalçaları əldə etmək və ya onları hazırlamaq sənətini öyrənmək üçün göndərən Avropa krallarının diqqətini cəlb edirdi. Fransa kralı XIV Luis bu xalça xüsusiyyətlərini öyrənmək üçün səfəvi saraylarına bir neçə sənətkarı göndərdi. Polşa kralı III Sigizmund 1601-ci ildə Cənubi Azərbaycan xalılarını almaq üçün Həmədan, Zəncan və s. şəhərlərə tacirlərini göndərmişdir ki, alınmış bu xalçalar da hal-hazırda Varşavanın Prezident Muzeyində saxlanılır. Bu cür satın alınmış xalçalar hələ də Vaşinqton muzeyində, Münhenin Bavariya muzeyində qalmaqdadır. 1700-cü ilin aprelindən etibarən Danimarka kralı IV Frederik və Kraliça Luiza tacqoyma mərasimi üçün Danimarkaya hədiyyə olaraq verilmiş "qızıl ilə toxunan" bir xalça verilmişdir. 1666-cı ilə aid digər bir xalça nümunəsi isə Hollandiyanın Rozenburq sarayında saxlanılır və bu kimi xalçalar Avropanın bir çox muzeylərində daha çox tapılmışdır. Bu dövrdən başlayaraq, mindən çox xalça dünyanın müxtəlif muzeylərində və şəxsi kolleksiyalarında yerləşdirilib. 1600-cü ilin əvvəllərində hazırlanmış ipək xalçalara qızıl və gümüş və s. qatqılarla əlavə etməklə polad və ya dəmir tərkibli xalçalar da istehsal edilmişdir.[17] Bu dövrdə xalça istehsalı, kiçik şəhərlərdə köçərilər, kənd qadınları və sənətkarlar tərəfindən təmin edilən yerli bazarlarla məhdudlaşdı. Zənd xanədanlığı dövründə Kirman və Həmədan xalça toxumasının əhəmiyyətli bir mərkəzi halına gəldi və bu şəhərdən yüksək qiymətli keçi yunu ixrac edildi. Nəsirəddin şah Avropalı liderlərə hədiyyələr kimi 14 zərif xalça, həmçinin 1891-ci ildəki Vyana sərgisinə də qiymətli xalçalar təqdim etmişdir. Bu dövrdə Cənubi Azərbaycan Türkiyə vasitəsilə Avropaya əsas xalça ixracatçısı idi. XIX əsrin sonlarında, Qərb sarayları, muzeylər və zəngin evlər bu xalçalarla bəzədilmişdi. Onları toplayan Amerika, Britaniya və Alman şirkətləri investisiya qoyaraq, bu xalçaların ölkələrinə davamlı bir şəkildə daxil olmasını təmin edir. 1914-cü ildə Zieglerin şirkəti, P. Hotzun şirkəti

[16] Kamran Yeganegi- Saied Gaffer- Syed Sheila Mosaic- Doorstep Sara Hussein Arana, “Carpet Afshar cluster development in Zanjan province”, *International Journal of Engineering Science Invention, 4,* S.12, 2015, s. 2.
[17] S. Canby, *a.g.e.*, s. 98.

və London Şərq Xalı İstehsalçıları İranda fəaliyyət göstərirdilər və xaricdə Cənubi Azərbaycan xalçalarını İran xalçaları adı ilə satdılar.[18]



*Şəkil 6. Zəncan gəbəsi*

Rza şahın hakimiyyətə gəlməsi xalça sənayesinə xarici sərmayələrin azalmasına gətirib çıxardı. 3 fevral 1936-cı ildə Pəhləvi hökuməti, Kirman, Ərak və Həmədanda fəaliyyət göstərən Şərq Xalçası İstehsalat Şirkətinin (ECMC) bağlanmasını əmr etdi və aktivlərini yeni yaranan İran Xalça Şirkətinə köçürdü. Hökumət sintetik anilin boyalarının idxalı, xalça fabriklərini qurmağı qadağan etdi və ən yaxşı materialların və istehsal üsullarının istifadəsini təşviq etdi. İran xalılarına xarici maraqdan istifadə edərək, Məhəmməd Rza şah Pəhləvi xalça sənayesini həm sənətkarlıq, həm də İran üçün vacib bir valyuta mənbəyi kimi təbliğ etməyə davam etdi. Tehran Xalça Muzeyinin yaradılması, xalçaçılığa aid müxtəlif sərgilər və seminarları təşkil etmək üçün forumlar təşkil edilmişdir.[19] Azərbaycanda xalçaçılığın təşəkkülü və yayılması qonşu İran və Kiçik Asiya ilə eyni dövrə təsadüf edir. E.ə. V-IV əsrlərdə yaşamış Ksenofont farsların məşhur Midiya (Cənubi Azərbaycan) xalçaları işlətdiklərini xəbər verir. Azərbaycanda xalça istehsalı eramızdan xeyli əvvəllər meydana gəlsə də, xalçaçılığın müstəqil sənət sahəsi kimi inkişafı ilk orta əsrlərə təsadüf edir. Orta əsr xalçaçılıq sənətində süjetli xalçaların yaranması yeni mərhələ təşkil edirdi.[20] Süjetli xalça sənəti xüsusən Təbriz şəhərində daha yüksək inkişaf səviyyəsinə çatmışdı. Süjetli xalçaçılığın çiçəklənməsi xüsusilə XVI əsrə, Təbriz miniatür məktəbinin fəaliyyəti dövrünə təsadüf edirdi. O dövrün mahir xalça ustaları Təbriz rəssamlarının miniatürləri əsasında süjetli bədii xalçalar toxuyurdular. Bu cür xalçalara Zəncan və Həmədan əyalətlərində də rast gəlinir. Üzərində motivlər, müxtəlif məişət və ov səhnələri təsvir olunan süjetli xalçalar, həmçinin, Şirvan, Gəncə və Qarabağda da istehsal olunurdu. Yüksək dekorativ məziyyəti və texniki keyfiyyəti ilə seçilən Azərbaycan xalçaları təkcə ölkə daxilində

---

[18] Willem Floor, *Traditional Craftsin Qajar Iran (1800–1925 ),* Costa Mesa, CA: Mazda Publishers, USA 2003, s. 287.
[19] Elton Daniel and Ali Akbar Mahdi, *Culture and customs of Iran,* London 2006, s. 148.
[20] M. Hatəmi, "Türk Xalqları Folklorunda Əjdaha Surətinin Rəmzləri", *AEAX (ədəbiyyat, dil və incəsənət seriyası),* S.2, 1969, s. 2.

deyil, habelə beynəlxalq ticarətdə ən rəvac sənət məhsulu kimi yüksək tutulurdu. Məhz bu səbəbdən də keçmişdə Azərbaycanda xalça toxunmayan nəinki kənd və ya şəhər, hətta ailə tapmaq çətin idi. Bu gün ABŞ-da NyuYorkMetropolitan muzeyində XVII-XIX əsrlərə aid Azərbaycan xalçaları, XVI əsrəaidƏrdəbil xalçası, İngiltərə, Londonda XVI əsr "Şeyx Səfi" xalçaları, Fransada, Paris Dekorativ İncəsənət Muzeyində XVI əsr Təbriz xalçaları, İsveçrədə Bern və Sürix Xalça muzeylərində XVIII-XIX əsr Qazax və Quba xalçaları, Almaniyada, Münhen, Mannheim və Dusseldorf muzeyləri və fərdi kolleksiyaları XVIII-XIX əsrlər Qarabağ, Şirvan və Qazax xalçaları, Türkiyədə, İstanbul Topqapı Sarayı Muzeyi və Vəqflər Xalça Muzeyində XVI-XVIII əsrlər namaz kilimləri və Qarabağ xalçaları mövcuddur. İranda Tehran Arxeologiya və Gülüstan Muzeylərində XVI-XIX əsrlərə aid Azərbaycan xalçalarına rast gəlmək mümkündür.[21] Məhz bunun nəticəsidir ki, 2010-cu ilin 15-19 noyabr tarixində Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında Azərbaycan xalçaçılıq sənəti bu mötəbər qurumun Ümundünya Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilib. Bu, Azərbaycan mədəniyyətinin növbəti uğurudur.[22]

---

[21] Mustafa Yıldırım, "Dünya Muzelerindeki Azerbaycan Halılarından Bazı Örnekler", *Necmettin ErbakanÜniversitesi İlahiyat Fakültesi Dergisi,* 18, S.18, 2004, s. 91.
[22] "Azərbaycan xalçaçılıq sənəti", https://unesco.preslib.az/az/page/2m5wgUMSfa(12.12.2021).

## Sonuç

Azərbaycan xalçalarının forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi onların tədqiqi üçün geniş meydan açır. Xalça Azərbaycan xalqının ədəbiyyatı, memarlığı, bədii miniatür və dekorativ-tətbiqi sənətinin digər növləri ilə çoxlu tellərlə bağlıdır. Azərbaycan xalçalarının tədqiqi geniş məxəzşünaslıq bazasına əsaslanır. Buraya həm eneolit dövründən başlayaraq arxeoloji abidələr, həm antik və orta əsrlərin müəllif və səyyahlarının məlumatları, həm epiqrafik abidələr, xalq folkloru və klassik ədəbiyyat nümunələri, miniatürlər, Avropa rəssamlarının əsərləri; tarixi sənədlər, məmurların hesabatları, Avropa, Rusiya, Amerika və ən əsası, Azərbaycan alimlərinin elmi-tədqiqat işləri daxildir.Zəncan və Həmədan əhalisinin əsas istehsal sahələrindən biri olan xalçaçılığı şərtləndirən ən mühüm amil ərazidə sənətkarlığın müxtəlif sahələrinin inkişafı üçün geniş xammal bazasının olması idi. Zəngin və rəngarəng çeşidli daş, gil, metal, yun, pambıq, ipək, boyaq ehtiyatlarının mövcudluğu burada daşişləmə, metalişləmə, ağacişləmə, dulusçuluq, toxuculuq, şüşəişləmə, sümükişləmə və digər sənət sahələrinin geniş miqyasda yayılması və inkişaf etməsi üçün zəmin olmuşdur. Zəngin arxeoloji material və etnoqrafik məlumatlar Zəncan və Həmədan ərazisində ayrı-ayrı sənət sahələrinin inkişaf səviyyəsi barədə kifayət qədər dolğun təsəvvür yaratmağa imkan verir.

## Kaynaklar

"Azərbaycan xalçaçılıq sənəti", https://unesco.preslib.az/az/page/2m5wgUMSfa(12.12.2021).

*Azərbaycan etnoqrafiyası* 3 cilddə, C. I, Şərq-Qərb, Bakı 2007.

BİER, C., *Woven from the Soul, Spun from the Heart: Textile Arts of Safari and Qatar Iran, Sixteenth–Nineteenth Centuries,* DC: The Textile Museum, Washington 1987.

BLAİR, S., BLOOM, J. M., *The Art and Architecture of Islam, 1250–1800* (The Yale University Press Pelican History of Art Series), 1996.

CANBY, SH., *The Golden Age of Persian Art, 1501–172,*Harry N. Abrams, New York 2000.

DANİEL, E.- MAHDİ, A., A., *Culture and customs of Iran,* Greenwood Press, London 2006.

EDWARDS, A., C., *The Persian Carpet; a Survey of the Carpet-Weaving Industry of Persia,* 1953.

FLOOR, W., *Traditional Craftsin Qajar Iran (1800–1925 ),* Costa Mesa, CA: Mazda Publishers, USA 2003.

HATƏMİ, M., "Türk xalqları folklorunda əjdaha surətinin rəmzləri", *AEAX (ədəbiyyat, dil və incəsənət seriyası),* S.2, 1969, s.32.

HİLLMANN, M., *Persian Carpets,* University of Texas Press, Austin1984.

XATISOV, K. , *Kustarnıe promısli Zakavkazskoqo kraya, Otçetı i issledobaniya po kustarnoy promışlennosti v Rosii,* t.N, SPb., 1894.

JAVA, M., N., *A travelling in Iran carpet weaving art,* author, Tehran 1995.

ÖLMEZ, F. N., "Safavi Dönemi Dokumacılık Sanatı ve Özellikleri", *Akademik Araştırmalar Dergisi,* 2006. s. 179-188.

PAŞAYEVA, V., "Azerbaycan Halı Seneti Tarihine Bir Bakış", *Atatürk Üniversitesi Güzel Sanatlar Enstitüsü Dergisi,* S.11, 2003, s. 77-94.

PUDRON, N., *Carpet and Textile Patterns,* London Laurence King Publishing, London 1996.

SARIYEVA, İ.,"Təbriz xalçaçılıq məktəbi - mədəniyyətimizin böyük qollarından biri kimi", *Bakı xəbər qəzet,* S.67, 2015, s.15-16.

YEGANEGİ, K.- GAFFER S.-MOSAİC, S., SH.- DOORSTEP, S. H., A., "Carpet Afshar cluster development in Zanjan province", *International Journal of Engineering Science Invention /* Volume 4, Issue 12, 2015, s. 1-6.

YILDIRIM, M., "Dünya muzelerindeki Azerbaycan halılarından bazı örnekler" *Necmettin Erbakan Üniversitesi İlahiyat Fakültesi Dergisi,* 18, S.18, 2004, s. 91-113.

ALEKPEROV, A., K., *İssledovaniyapo arxeloqii i etnoqrafii Azerbaydjana*, İzdatelstvo Akademii Nauk Azerbaydjanskoy SSR, Baku 1960.